# Xalq rəssamı Asəf Cəfərovun əsərlərində müasirlik problemi

1927 -ci ildə Bakıda İçərişəhərdə müəllim ailəsində dünyaya göz açan Asəf Cəfərova doğulduğu məkanın böyük təsiri olub. İçərişəhərin astral üstünlüyü, pak aurası onun uşaqlıq illərinin formalaşmasında önəmli rol oynayıb. Qədim mədəniyyət abidələrinə ("Qız qalası", "Şirvanşahlar sarayı", "Qala divarları") hopmuş tarixi milli özünəməxsusluq , qeyri-adilik onda rəssamlığa güclü istək oyatmışdır.



"Musiqiçilər"

Həmin məkanda keçən uşaqlığından qəlbinə sirayət edən niyyəti də onu Əzim Əzimzadə adına rəssamlıq məktəbinə gətirib. O məktəbi uğurla bitirəndən sonra V.İ.Surikov adına rəssamlıq institutuna qəbul olunub. Bu institutda o, F.Reşetkova, V.Necitaylo və V.Ciplakova kimi məşhur rəssamlardan dərs alıb. Təbii ki, məşhur rəssamlardan bəhrələnmə bacarığı ilə şəhər mühiti, muzeylər, sərgilər, sənət adamları ilə maraqlı ünsiyyətlər sənətə olan maraq dairəsini yetərincə genişləndirməyə bilməzdi.

Rənglər insan həyatında olduqca mühüm rol oynayır. Rənglər insanlara məchul sənət dünyasının qapısını açır.

Asəf Cəfərov kimi sənətkar rəssamlarınlə ümidlərdən, xəyallardan rənglərlə vurduğu tablolar sanki sehirli bir dillə insanlarla danışır. Belə rəssamların könlündən və gözündən qopan əsərlər dünyasında elə bil dağlar bayatı deyir,

vadilər muğamat oxuyur. Dünya müxtəlif rənglərlə, təkrar olunmaz təbii lövhələrlə zəngindir.

Asəf Cəfərov dünyanın rənglər aləmini, təbiətini,daşını, dənizini, çayını, insanlarını oxumaq istedadına sahib idi.

1954 -cü ildə Asəf Cəfərov yuxarı kurs tələbələri ilə birgə yay tətili təcrübəsi üçün Qazaxıstana göndərilir. Xam torpaq sahələri ilə əhatələnən , bir normal yaşayış evi belə olmayan sovxoz çöllüyündə onlar çadırlarda qalası olurlar. Belə bir şəraitsizlik də Asəf Cəfərovun yaradıcılıq əzminə kölgə sala bilmir. Əksinə o, "Məktub" adlı tablosunu yaratmağa nail olur. Gənc bir qızın məktub oxumasını təsvir edən həmin əsərin 1954 -cü ildə Moskvada kecirilən sərgidəki nümayişi müəllimlərinə böyük uğur qazandırır.

Növbəti ildə isə onu təcrübə üçün Bakıya göndərirlər. Rəssam burada Xəzər dəniz neftçilərinə həsr etdiyi "Estakada" mənzərəsini yaradır. 1955 -ci ildə yaratdığı bu əsərdə müəllif parlaq işıqlı rənglər vasitəsi ilə dənizdə "Vışka" təsvir edib. Bu əsəri də tamaşaçılar tərəfindən böyük baxımlılıqla qarşılanır. 1956-cı ildə ali diplom alası (məzunluğu başa çatan) tələbələrlə birlikdə Asəf Cəfərov Hindistana və Pakistana yola düşür.A.Cəfərovun Hindistan silsilə əsərləri mövzu baxımından olduqca rəngarəngdir. Kəlküttədə yaşayan insanların həyat tərzini əks etdirən "Kəlküttədə küçə", "Qızın portreti", "Axşam yağışından sonra", "İş axtaranlar" və sair əsərləri diqqəti nikbin duyğularla cəlb etdi.

"Kəlküttədə küçə" əsərində isti rənglərdən istifadə edərək, gözəl koloritdə küçədə alver edən satıcı ilə alıcıların obrazlarını özünəməxsusluqla yaradıb. Hindlilərin geydiyi paltarları isti rənglərlə təsvir edən rəssam, qızılı sarı, qırmızı-göy, yaşıl rənglərlə, rənglərin harmoniyası ilə asfaltın rəng tonu arasında kontrast (təzad)yaradıb. Rənglərlə işığın vəhdəti əsərdə dolğunluğu ilə xüsusi qabiliyyəti səciyyələndirir. Hindistanda yaratdığı gözəl əsərlər sırasında "Düyü plantasiyasında","Pussuri çayı" və digər əsərləri də daxildir.

Təkcə bircə dəfə həyata gəlib təkrar bir ömür yaşayan insan doğrudan-doğruya aləmin gözəlliklərindən, səadət və sevincindən nəsibini almağa haqlıdır. Rənglər dünyası, təbiətin təkrarsız mənzərələri insanın gözlərinə sevinc verir. Bu sevinc gözlər vasitəsi ilə insanın qəlbinə hopur, xeyirxah hisslər yaradır, duyğuları oxşayır. Gözəl əsər gözün xoşuna gəlir, könlün musiqisinə cevrilir. Gözə xoş gələn təbii ki, ürəyə - qəlbə də xoş gəlir.

Pakistanda 1956 -ci ildə yaratdığı "Pakistan mənzərəsi", "Qanq çayında" əsərlərində isə rəssam parlaq dekorativ rəng tonlarından istifadə edib. Hindistan və Pakistan təcrübələrindən sonra o, 1957 -ci ildə "Pakistan çörəyi" əsərini diplom işi olaraq yaradır. Bu əsərində isə rəssam "Stavrapol" adında kecmiş sovet teploxodundan fəhlələrin buğdanı (taxılı) necə boşaltdıqlarını təsvir edib.

Əsərdə fəhlələrin psixoloji durumları, bəniz və jestlərindəki sevinc hissləri orijinal təsvirlə əks etdirilib. Məhz bu əsəri ilə rəssam diplom müdafiəsini edib Surikov adına rəssamlıq institutunu bitirib. Hindistan silsiləsi əsərlərinə görə Asəf Cəfərov (sabiq)SSRİ-nin Rəssamlar İttifaqına üzv qəbul edilir. 1957 -ci ildə Moskvada Asəf Cəfərovun fərdi sərgisi açılır. Bu sərgi haqqında məşhur rus rəssamı B.V.İoqanson öz münasibətini belə bildirmişdir:" Asəf Cəfərov öz əsərlərində, mürəkkəb rəng tonlarından istifadə edərək , rənglərin bir-birinə təsirindən rəng harmoniyasını yaradır."Ona görə də ona "kolorit rəssamı" adı veriblər.

Yaradıcılığında özünəməxsus rəng üslubu olan Asəf Cəfərov stili öz əksini başqa rəssamların əsərlərində də tapmışdır. Əlbəttə ki,fərqli tərzdə. Bunlardan xalq rəssamı Tahir Salahovun "Təmirçilər" əsərini nümunə kimi göstərmək olar.

Baxmaq, görmək, təhlil etmək, zərif güşələrdən zövq almaq qabiliyyəti, adiliklərdə gizlənən qeyri-adilikləri duymaq məharəti Asəf Cəfərovun sənətkar xüsusiyyətlərindəndir.

Asəf Cəfərov rənglər dünyası ilə yaratdığı əsərləri insanın içini yaşamaq sevinci ilə doldurub, ona həyat gücü verir, onu gözəllik və zərifliklə müalicə edir, ona ağrı və istirablara üstün gəlməkdə yardım edirdi.

Çünkü bu sənətkar təbiətin gözəlliklərinə, möcüzələrinə, nəinki gözlərini, həm də qəlbini açmağı bacarmışdır. Ona görə də, boyaların ahənginin, formalarının kamilliyi ilə insan - tamaşaçı sağlamlığına müsbət təsir göstərə bildi.

Asəf Cəfərov bütün mövzularda yeni ruhlu, gözəl əsərlər müəllifidir. Sumqayıt aliminium zavod fəhlələrinə həsr etdiyi "Metaltökənlər", eyni zamanda kənd həyatına aid "Fermada","Rəfiqələr","Görüş" və sairə əsərləri mövcuddur. Rəngkarlığın bütün janrlarında (portret, mənzərə, na-



türmort və s.) parlaq rəngləri monoxrom rənglərlə yaxınlaşdırıb, kotanda öz təsvir tərzini yaradıb. Bu hala rənkarlıqda "ştrixlərdən ibarət rənkarlıq" deyilir. Rəssam "sabah haqqında söz" tablosunu məhz bu üslubda (stildə) ərsəyə gətirmişdir.

Gözəlliyi görmək və anlamaq sevinci insanın anlayış və duyğular aləmini zənginləşdirir, insanı nəcibləşdirir, onda ən gözəl duyğular oyadır. İnsanın mənəvi qüvvələrini kamilləşdirən təsviri sənət onun çətin vəziyyətlərində ruhi böhrandan xilas olmasına kömək edir. Əlbəttə, burada söhbət Asəf Cəfərov kimi əsil rəngkarlıq istedadlarının əsərlərinin göstərdiyi nəcib təsirdən gedir.

Abşeron təbiətini, onun qədim, darısqal kənd küçələrini, köhnə, yastı dam örtüklərini, evlərini, həyət divarlarını, bağ evlərini, tut, əncir ağaclarını və s. doğma gözəllikləri rəssam heç vaxt unutmayıb. "Buzovna kəndi", "Abşeron", "Daş çəpər", "Maştağa kəndi", "Qızılqum", "Yaz", "Köhnə kənd" və sairə əsərlər onun fırçasının bəhrələridir.

Əsil sənət nümunələri yaradan gözəl rəssam Asəf Cəfərov nəinki düşüncələrimizi, hətta duyğularımızı da fəth edir. O həyat haqqında öz təsəvvürlərini ecazkar aləmə aparır və onları tamamilə yeni orijinal müasir mövqedən baxmağa vadar edir.

Alman şairi İ.B.Höte "rəng təhlili haqqında oçerk" əsərində yazırdı ki, ayrı-ayrı rənglər daxildə xüsusi ovqatlar doğurur. Asəf Cəfərov rənglər vasitəsi ilə insan qəlbində ən gözəl ovqatlar doğuran əsərləri ilə adını əbədiləşdirdi.

Asəf Cəfərov rənglərin təsir gücünü dərindən dərk etdiyinə görə boyalardan sərbəst və məqsədəuyğun ustalıqla istifadə etməyi bacarırdı ki, bu da hər rəngkara nəsib olan səadət deyil. Bu səadəti anlayan Asəf Cəfərov bilirdi ki, insan qavrayışlarının ənənələri var və hər şey bu ənənələr üzərində qurulur.

Memarlıq abidələrinə aid "Köhnə heykəllər", "İçərişəhərdə küçə" əsərləri, natürmortlardan isə "Kaktuslar", "Qravura ilə natürmort", "Boranı","Heyva ilə natürmort" ,"Akvarium" və sairə əsərləri insanları duyğulandırır, düşündürür.

Bu duyğu - düşüncə həm mövzu, həm müasirlik, həm də rəng həllində işləmələrdə insanları çox dərinlərə çəkir. 1979 - cu ildə Bakıda keçirilən fərdi sərgisində tamaşaçılar onun sənət məktəbinə gətirdiyi novatorluğun, dekorativ rəngkarlığın yeniliklərinin şahidi olub. Həmin sərgi haqqında xalq rəssamı Mikayıl Abdullayev öz fikrini belə ifadə edib: "Sərgidə möhtəşəm rənglərin akkordlarını dərk etdim."

Asəf Cəfərov kimi rəssamların xoşbəxtliyi təkcə onda deyildi ki, o başqalarına nisbətən daha iti və daha dərindən görürdü. Bu xoşbəxtlik onda idi ki, o gördüklərini başqaları ilə bölüşməyi bacarır, başqalarını öz müşahidələri ilə zənginləşdirir, əşyanın zahiri obrazını dərk etdirir və əsərlərinin mahiyyətinə varmağı öyrənməyin öhdəsindən gəlirdi.

Gözəlliyin bütün təzahürləri isə həmişə şəfalı olur. Asəf Cəfərov ona görə gözəl çəkirdi ki, onun gözəllik haqqında düşüncə və duyumları, təsəvvürləri gözəl idi. Başqa cür o əsərlərini nurlandıra bilməzdi.

Asəf Cəfərov mövzuları seçərkən onların bədii kamilliyinə maksimum tələbkarlıqla yanaşmaqla, onların məzmununun bu və ya digər şəraitə uyğun olub - olmadığını ətraflı nəzərdən kecirirdi. Görmək və başa düşmək sevinci isə A.Eynşteynin təbirincə təbiətin ən nadir nemətidir. Asəf Cəfərovun əsərlərində onun ruhunun gözəlliyi əks olunub.

Gözəllik qanunları ilə yaşayıb yaradan rəssamın yaradıcı fantaziyası məhz elə bu baxımdan öz müasirliyini qoruyub saxlayır. Biz Asəf Cəfərovun əsərlərində mənəvi gözəlliyə, qəlb gözəlliyinə malik fırçasının izlərini həmişə sevəcəyik.

Azərbaycanın xalq rəssamı Asəf Cəfərov gözəl anlayırdı ki, sənətkarı mənəvi potensialı ucaldır: dünyagörüşü, ümumi erudisiyası, mədəniyyəti, ideya - siyasi hazırlığı, əxlaqı və digər xüsusiyyətləri.

**Qabiliyyət yaradıcılıqla birləşəndə, sənətkarlıq zəngin daxili aləmdən doğulanda əsl sənət əsərləri yaranır. Bu mənada sözügedən sənətkar hisslərlə, duyğularla bəşəri ideyalarla təsir etmək gücündə yaratdı əsərlərini. Bu əsərlər muzeylərdə, fərdi kolleksionerlərdə yəqin ki, sevilərək qorunur, saxlanılır. Çünki, həmin əsərlər qədimliklə bəşəriliyi, milli paklığı özünün sənətkar ruhunda birləşdirir.**

**● Elşən HACIZADƏ,**
**rəssam**